**Azərbaycan Respublikasının Nazirlər Kabinetinin**
**Qərarı № 367**

**Bakı şəhəri, 23 sentyabr 2016-cı il**

# “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:

1. “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 12 aprel tarixli 80 nömrəli qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 4, maddə 289, № 8, maddə 560; 2002, № 8, maddə 549, № 9, maddə 581, № 10, maddə 647; 2003, № 2, maddə 147, № 4, maddə 226, № 10, maddə 614, № 12, II kitab, maddə 749; 2004, № 3, maddə 196, № 4, maddə 307, № 5, maddələr 389, 390, № 9, maddə 743; 2005, № 10, maddə 980; 2006, № 4, maddə 363, № 7, maddə 652; 2007, № 5, maddə 548, № 6, maddə 700, № 11, maddə 1187; 2008, № 4, maddə 325; 2009, № 11, maddə 938; 2010, № 1, maddə 68; 2012, № 9, maddə 928; 2013, № 7, maddə 871; 2014, № 1, maddə 65, № 2, maddə 197; 2016, № 4, maddə 823; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 2 avqust tarixli 290 nömrəli və 16 avqust tarixli 308 nömrəli qərarları) əlavəsi olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 22 dekabr tarixli 161 nömrəli qərarı ilə təsdiq edilmiş mətndə “Azərbaycan Respublikasının ərazisinə gətirilən mallar üzrə gömrük idxal rüsumlarının dərəcələri”ndə bəzi mal mövqeləri üzrə gömrük idxal rüsumları əlavədə göstərilən tarif dərəcələrində təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar dərc olunduğu gündən 30 gün sonra qüvvəyə minir və iki il müddətində qüvvədədir.

**Artur RASİ-ZADƏ,**
**Azərbaycan Respublikasının Baş naziri**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 23 sentyabr tarixli 367 nömrəli qərarı ilə təsdiq edilmişdir.**

| XİF MN üzrə kod<br>1 | Mal mövqelərinin adları<br>2 | Əla-və ölçü vahi-di<br>3 | Tarif dərəcəsi (gömrük dəyərinə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)<br>4 |
|---|---|---|---|
| QRUP 02 | **ƏT VƏ QİDA ÜÇÜN YARARLI ƏT ƏLAVƏLƏRİ** | | |
| 0207 | 0105 mal mövqeyində göstərilən ev quşlarının əti və ət əlavələri, təzə, soyudulmuş və ya dondurulmuş: | | |
| | - ev toyuqlarının (Gallus domesticus): | | |
| 0207 11 | - - hissələrə ayrılmamış, təzə və ya soyudulmuş: | | |
| 0207 11 100 0 | - - - tükü yonulmuş və içalatı yarı çıxarılmış, baş və ayaq daraqları ilə, "83 %-li cücə" kimi təqdim olunan | - | 1 kq 1 ABŞ dolları |
| 0207 11 300 0 | - - - tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, lakin boynu, ürəyi, qaraciyəri və pətənəyi üstündə olan, "70%-li cücə" kimi təqdim olunan | - | 1 kq 1 ABŞ dolları |
| 0207 11 900 0 | - - - tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan və boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "65%-li cücə" kimi təqdim edilən və ya hər hansı başqa hazırlanmada təqdim edilən | - | 1 kq 1 ABŞ dolları |
| 0207 12 | - - hissələrə ayrılmamış, dondurulmuş: | | |
| 0207 12 100 0 | - - - tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, lakin boynu, ürəyi, qaraciyəri və pətənəyi üstündə olan, "70%-li cücə" kimi təqdim olunan | - | 1 kq 1 ABŞ dolları |
| 0207 12 900 0 | - - - tükü yonulmuş və içalatı çıxarılmış, başsız və ayaq daraqları olmayan, boyunsuz, ürəksiz, qaraciyərsiz və pətənəksiz, "65%-li cücə" kimi təqdim olunan və ya hər hansı başqa hazırlanmada təqdim edilən | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 | - - cəmdək hissələri və ət əlavələri, təzə və ya soyudulmuş: | | |
| | - - - cəmdək hissələri: | | |
| 0207 | - - - - sümükdən ayrılmış ət | - | 1 kq 1 ABŞ |

| | | | |
|---|---|---|---|
| 13 100 0 | | | dolları |
| | - - - - sümükdən ayrılmamışlar: | | |
| 0207 13 200 0 | - - - - - şaqqalar və ya yarımşaqqalar | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 300 0 | - - - - - bütöv qanadlar, nazik ucla və ya onsuz | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 400 0 | - - - - - belləri, boyunları, belləri boynu ilə birgə, büzdümləri və qanadların nazik ucları | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 500 0 | - - - - - döş və onlardan parçalar | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 600 0 | - - - - - budlar və onlardan parçalar | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 700 0 | - - - - - digərləri | - | 1 kq 1 ABŞ dolları |
| | - - - əlavə məhsullar: | | |
| 0207 13 910 0 | - - - - qaraciyər | - | 1 kq 1 ABŞ dolları |
| 0207 13 990 0 | - - - - digərləri | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 | - - cəmdək hissələri və ət əlavələri, dondurulmuş: | | |
| | - - - cəmdək hissələri: | | |
| 0207 14 100 0 | - - - - sümükdən ayrılmış ət | - | 1 kq 1 ABŞ dolları |
| | - - - - sümükdən ayrılmamışlar: | | |
| 0207 14 200 0 | - - - - - şaqqalar və ya yarımşaqqalar | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 300 0 | - - - - - bütöv qanadlar, nazik ucla və ya onsuz | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 400 0 | - - - - - belləri, boyunları, belləri boynu ilə birgə, büzdümləri və qanadların nazik ucları | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 500 0 | - - - - - döş və onlardan parçalar | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 600 0 | - - - - - budlar və onlardan parçalar | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 700 0 | - - - - - digərləri | - | 1 kq 1 ABŞ dolları |
| | - - - ət əlavələri: | | |
| 0207 14 910 0 | - - - - qaraciyər | - | 1 kq 1 ABŞ dolları |
| 0207 14 990 0 | - - - - digərləri | - | 1 kq 1 ABŞ dolları |
| **QRUP 04** | **SÜD MƏHSULLARI; QUŞ YUMURTASI; TƏBİİ BAL, BAŞQA YERDƏ ADI ÇƏKİLMƏYƏN VƏ TƏSNİF OLUNMAYAN HEYVAN MƏNŞƏLİ ƏRZAQ MƏHSULLARI** | | |
| 0407 | Quş yumurtası, qabıqlı, təzə, | | |

| | | | |
|---|---|---|---|
| | konservləşdirilmiş və ya suda bişirilmiş: | | |
| | - digər təzə yumurtalar: | | |
| 0407 21 000 0 | - - ev toyuğunun *(Gallus domesticus)* | 1000 əd | 1000 ədəd 100 ABŞ dolları |
| 0407 90 000 0 | - digərləri: | 1000 əd | 1000 ədəd 100 ABŞ dolları |
| **QRUP 07** | **TƏRƏVƏZ VƏ BƏZİ YEMƏLİ MEYVƏKÖKLÜLƏR VƏ KÖK YUMRULARI** | | |
| 0702 00 000 0 | Tomat, təzə və ya soyudulmuş | - | 1 kq 0,4 ABŞ dolları |
| 0703 | Şalğamaoxşar soğan, soğan-şalot, soğan-kəvər, sarımsaq və digər soğanaqlı tərəvəzlər, təzə və ya soyudulmuş: | | |
| 0703 10 | - şalğamaoxşar soğan, soğan şalot: | | |
| | - - şalğamaoxşar soğan: | | |
| 0703 10 190 0 | - - - digəri | - | 1 kq 0,2 ABŞ dolları |
| 0703 10 900 0 | - - soğan şalot | - | 1 kq 0,2 ABŞ dolları |
| 0707 00 | Xiyar və kornişonlar, təzə və ya soyudulmuş: | | |
| 0707 00 050 0 | - xiyar | - | 1 kq 0,4 ABŞ dolları |
| 0707 00 900 0 | - kornişonlar | - | 1 kq 0,4 ABŞ dolları |
| **QRUP 08** | **YEMƏLİ MEYVƏLƏR VƏ QOZ-FINDIQ; SİTRUS MEYVƏLƏRİNİN QABIQLARI VƏ YA QOVUN QABIQCIQLARI** | | |
| 0802 | Digər qoz-fındıq, təzə və ya qurudulmuş, qabığı təmizlənmiş və ya təmizlənməmiş, qabıqla və ya qabıqsız: | | |
| | - meşə fındığı (corylus spp.): | | |
| 0802 21 000 0 | - - qabıqlı | - | 1 kq 1,5 ABŞ dolları |
| 0802 22 000 0 | - - qabığı təmizlənmiş | - | 1 kq 1,5 ABŞ dolları |
| 0806 | Üzüm, təzə və ya qurudulmuş: | | |
| 0806 10 | - təzə: | | |
| 0806 10 100 0 | - - süfrə növləri | - | 1 kq 0,4 ABŞ dolları |
| 0806 10 900 0 | - - digərləri | - | 1 kq 0,4 ABŞ dolları |
| 0808 | Almalar, armudlar və heyvalar, təzə: | | |
| 0808 10 | - almalar: | | |

| | | | |
|---|---|---|---|
| 0808 10 100 0 | - - sidr istehsalı üçün, qalama (qabsız), sentyabrın 16-dan dekabrın 15-dək | - | 1 kq 0,3 ABŞ dolları |
| 0808 10 800 0 | - - digərləri | - | 1 kq 0,3 ABŞ dolları |
| 0808 30 | - armudlar: | | |
| 0808 30 100 0 | - - perrinin və ya armud sidrinin istehsalı üçün, qalama (qabsız), avqustun 1-dən dekabrın 31-dək | - | 1 kq 0,3 ABŞ dolları |
| 0808 30 900 0 | - - digərləri | - | 1 kq 0,3 ABŞ dolları |
| 0810 70 000 0 | - xurma | - | 1 kq 0,3 ABŞ dolları |
| **QRUP20** | **TƏRƏVƏZLƏRİN, MEYVƏLƏRİN, QOZ-FINDIĞIN VƏ YA BİTKİLƏRİN DİGƏR HİSSƏLƏRİNİN EMAL MƏHSULLARI** | | |
| 2009 | Meyvə şirələri (üzüm şirəsi daxil olmaqla) və tərəvəz şirələri, qıcqırdılmamış və tərkibində spirt əlavəsi olmayan, şəkər və ya digər şirinləşdirici maddələr əlavə edilməklə və ya edilməməklə: | | |
| | - portağal şirəsi: | | |
| 2009 12 000 0 | - - dondurulmamış, Briks ədədi 20-dən çox olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| | - qreypfrut şirəsi (pomello şirəsi daxil olmaqla): | | |
| 2009 21 000 0 | - - Briks ədədi 20-dən çox olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| | - digər sitrus bitkilərinin şirələri: | | |
| 2009 31 | - - Briks ədədi 20-dən çox olmamaqla: | | |
| | - - - qiyməti, 100 kq netto çəki üçün 30 avrodan artıq olan: | | |
| 2009 31 110 0 | - - - - şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 31 190 0 | - - - - digərləri | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti |

| | | | |
|---|---|---|---|
| | | | ilə |
| | - - - qiyməti, 100 kq netto çəki üçün 30 avrodan artıq olmayan: | | |
| | - - - - limon şirəsi: | | |
| 2009 31 510 0 | - - - - - şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 31 590 0 | - - - - - şəkər əlavəsi olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| | - - - - digər sitrus bitkilərinin şirələri: | | |
| 2009 31 910 0 | - - - - - şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 31 990 0 | - - - - - şəkər əlavəsi olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| | - ananas şirəsi: | | |
| 2009 41 | - - Briks ədədi 20-dən çox olmamaqla: | | |
| 2009 41 100 0 | - - - qiyməti, 100 kq netto çəki üçün 30 avrodan artıq olan, şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| | - - - digəri: | | |
| 2009 41 910 0 | - - - - şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 41 990 0 | - - - - şəkər əlavəsi olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 50 | - tomat şirəsi: | | |
| 2009 50 100 0 | - - şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 50 900 0 | - - digəri | - | 15%, lakin 1 lt 0,7 ABŞ |

| | | | |
|---|---|---|---|
| | | | dollarından az olmamaq şərti ilə |
| | - üzüm şirəsi (üzüm suslosu daxil olmaqla): | | |
| 2009 61 | - - Briks ədədi 30-dan çox olmayan: | | |
| 2009 61 100 0 | - - - qiyməti, 100 kq netto çəki üçün 18 avrodan artıq olan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 61 900 0 | - - - qiyməti, 100 kq netto çəki üçün 18 avrodan artıq olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| | - alma şirəsi: | | |
| 2009 71 | - - Briks ədədi 20-dən çox olmamaqla: | | |
| 2009 71 200 0 | - - - şəkər əlavəsi ilə | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| 2009 71 990 0 | - - - şəkər əlavəsi olmayan | - | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| **QRUP 22** | **SPİRTLİ VƏ SPİRTSİZ İÇKİLƏR VƏ SİRKƏ** | | |
| 2202 | Sular, mineral və qazlı sular daxil olmaqla, şəkər və ya digər şirinləşdirici və ya dad-aromatik maddələr əlavə edilən və başqa spirtsiz içkilər, 2009 mal mövqeyində təsnif edilən meyvə və ya tərəvəz şirələri istisna olmaqla: | | |
| 2202 90 | - digərləri: | | |
| 2202 90 100 | - - tərkibində 0401- 0404 mal mövqelərində göstərilən məhsullar və ya 0401- 0404 mal mövqelərində göstərilən məhsullardan alınan yağ olmayan: | | |
| 2202 90 100 1 | - - - meyvə və tərəvəz şirələri əsasında içkilər | l | 15%, lakin 1 lt 0,7 ABŞ dollarından az olmamaq şərti ilə |
| **QRUP 25** | **DUZ; KÜKÜRD; TORPAQ VƏ** | | |

| | | | |
|---|---|---|---|
| | **DAŞ; SUVAQ MATERİALLARI, ƏHƏNG VƏ SEMENT** | | |
| 2508 10 000 0 | - bentonit | - | 1 kq 0,03 ABŞ dolları |
| 2520 | Gips; anhidrit; gipsli bağlayıcılar (susuzlaşdırılmış gips və ya kalsium sulfat olan), rənglənməmiş və ya rənglənmiş, tərkibində az miqdarda sürətləndiricilər və ya ləngidicilər olan: | | |
| 2520 10 000 0 | - gips; anhidrid | - | 1 kq 0,07 ABŞ dolları |
| 2523 | Portlandsement, giltorpaqlı sement, şlaklı sement, supersulfat sementi və analoji hidravlik sementlər, rənglənmiş və ya rənglənməmiş, hazır və ya klinkerlər formasında: | | |
| 2523 10 000 0 | - sement klinkerləri | - | 1 kq 0,07 ABŞ dolları |
| | - portlandsement: | | |
| 2523 21 000 0 | - - ağ sement, süni rənglənmiş və ya rənglənməmiş | - | 1 kq 0,07 ABŞ dolları |
| 2523 29 000 0 | - - digəri | - | 1 kq 0,07 ABŞ dolları |
| 2523 30 000 0 | - giltorpaqlı sement | - | 1 kq 0,07 ABŞ dolları |
| 2523 90 000 0 | - digər hidravlik sement | - | 1 kq 0,07 ABŞ dolları |
| **QRUP 68** | **DAŞ, GİPS, SEMENT, ASBEST, SLYUDA VƏ ANALOJİ MATERİALDAN MƏMULATLAR** | | |
| 6809 | Gips və ya onun qarışıqları əsasında məmulatlar: | | |
| 6809 11 000 0 | - - kağızla və ya kartonla örtülmüş və ya armaturlaşdırılmış | m2 | 1 m2 0,4 ABŞ dolları |
| 6809 19 000 0 | - - digərləri | m2 | 1 m2 0,4 ABŞ dolları |
| 6810 | Sementdən, betondan və ya süni daşlardan məmulatlar, armaturlaşdırılmış və ya armaturlaşdırılmamış : | | |
| | - kirəmit, plitələr, kərpiclər və analoji məmulatlar: | | |
| 6810 11 | - - inşaat blokları və kərpicləri: | | |
| 6810 11 100 0 | - - - yüngülləşdirilmiş betondan (sındırılmış süngər daşı, qranullaşdırılmış şlak və s. əsaslı) | - | 1 kq 0,04 ABŞ dolları |
| 6810 11 900 0 | - - - digərləri | - | 1 kq 0,04 ABŞ dolları |
| 6810 | - - digərləri | - | 1 kq 0,04 ABŞ |

| | | | |
|---|---|---|---|
| 19 000 0 | | | dolları |

**QRUP 69KERAMİKA MƏMULATLARI**

| | | | |
|---|---|---|---|
| 6901 00 000 0 | Kərpiclər, bloklar, lövhəciklər və silisli daş unundan və ya analoji silisium oksidi süxurlarından keramika məmulatları (məsələn, kizelqur, tripolit və ya diatomitdən) | - | 1 kq 0,04 ABŞ dolları |
| 6902 | Odadavamlı kərpiclər, bloklar, lövhəciklər və analoji odadavamlı keramik tikinti materialları, silisli daş unundan və ya analoji silisli süxurlardan istehsal edilən məhsullardan başqa: | | |
| 6902 10 000 0 | - tərkibində MgO, CaO və Cr2O3-ə hesablamada bir yerdə və ayrılıqda götürülmüş 50 kütlə %-dən çox Mg, Ca və ya Cr elementləri olan | - | 1 kq 0,04 ABŞ dolları |
| 6902 20 | - tərkibində 50 kütlə %-dən çox giltorpaq (Al2O3), silisium oksidi (SiO2) və ya onların qarışıqları və ya birləşmələri olan: | | |
| 6902 20 100 0 | - - tərkibində 93 kütlə % və ya daha çox silisium oksidi (SiO2) olan | - | 1 kq 0,04 ABŞ dolları |
| | - - digərləri: | | |
| 6902 20 910 0 | - - - tərkibində 7 kütlə %-dən çox, lakin 45 kütlə %-dən çox olmayaraq giltorpaq (Al2O3) olan | - | 1 kq 0,04 ABŞ dolları |
| 6902 20 990 0 | - - - digərləri | - | 1 kq 0,04 ABŞ dolları |
| 6902 90 000 0 | - digərləri | - | 1 kq 0,04 ABŞ dolları |
| 6904 | İnşaat kərpici, döşəmələr üçün bloklar, balka konstruksiyaların doldurulması üçün daşıyıcı keramika daşları və keramikadan olan analoji məmulatlar: | | |
| 6904 10 000 0 | - inşaat kərpicləri | 1000 əd | 1000 ədəd 15 ABŞ dolları |
| 6908 | Döşəmə üçün plitələr, döşəmə, soba, kaminlər və ya divarlar üçün keramikadan minalanmış üzlük lövhəcikləri; mozaika işləri üçün minalanmış keramik kubiklər və ya analoji məmulatlar, əsasda və ya onsuz: | | |
| 6908 10 000 0 | - lövhəciklər, kubiklər və analoji düzbucaqlı və ya başqa formada məmulatlar, ən böyük kənarı, tərəfi 7 sm-dən kiçik olan kvadrata yerləşən: | m2 | 1 m2 2 ABŞ dolları |

| | | | |
|---|---|---|---|
| 6908 90 | - digərləri: | | |
| | - - kobud keramikadan: | | |
| 6908 90 110 0 | - - - "şpaltplatten" tipli ikiqat lövhəciklər | m2 | 1 m2 2 ABŞ dolları |
| 6908 90 200 0 | - - - digəri | m2 | 1 m2 2 ABŞ dolları |
| | - - digərləri: | | |
| 6908 90 310 0 | - - - "şpaltplatten" tipli ikiqat lövhəciklər | m2 | 1 m2 2 ABŞ dolları |
| | - - - digərləri: | | |
| 6908 90 510 0 | - - - - üz tərəfi 90 sm2-dən çox olmayan | m2 | 1 m2 2 ABŞ dolları |
| | - - - - digərləri: | | |
| 6908 90 910 0 | - - - - - daş keramika | m2 | 1 m2 2 ABŞ dolları |
| 6908 90 930 0 | - - - - - saxsı və ya nazik keramika | m2 | 1 m2 2 ABŞ dolları |
| 6908 90 990 0 | - - - - - digərləri | m2 | 1 m2 2 ABŞ dolları |